# Ali Məqamlı Rəhbər Xatəmül-Ənbiya (s.ə.a.s) adına Hava Hücumundan Müdafiə Qərargahının komandirini təyin etdi - 23 /Jan/ 2011

İslam İnqilabının Ali Məqamlı Rəhbəri və Silahlı Qüvvələrin Ali Baş Komandanı Həzrət Ayətullah Xamenei verdiyi fərmanla general Fərzad İsmailini Xatəmül-Ənbiya (s.ə.a.s) adına Hava Hücumundan Müdafiə Qərargahının komandiri vəzifəsinə təyin etdi.

Fərmanın tam mətni:

Mərhəmətli və Bağışlayan Allahın adı ilə!

General Fərzad İsmaili,

İran İslam Respublikası Ordusunun Baş Komandanının təklifini, habelə məsuliyyət və ləyaqətinizi nəzərə alaraq sizi Xatəmül-Ənbiya (s.ə.a.s) adına Hava Hücumundan Müdafiə Qərargahının komandiri təyin edirəm. Ümdivaram, komandanlıq edəcəyiniz hərbi qüvvələrin hazırlığının ehtiyac duyulan səviyyəyə yüksəldilməsi və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi uğrunda əlinizdən gələni əsirgəməyəcəksiniz.

Vəzifə məsuliyyətini daşıdığı müddətdə göstərdiyi dəyərli səylərə görə general Miqatiyə təşəkkürümü bildirirəm.

Uca Yaradandan hamıya dəstək və yardımçı olmasını diləyirəm.

Seyid Əli Xamenei

3 bəhmən 1389-cu il

Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir